**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN NƏFƏS ÇALĞI ALƏTLƏRİ İFAÇILIĞININ İNKİŞAFINDA ƏLƏKBƏR ƏSGƏROVUN ROLU

| | |
|---|---|
| İxtisas: | 6213.01 – Musiqi sənəti |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Mahirə Ələkbər qızı Quliyeva** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Etnomusiqişünaslıq" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | sənətşünaslıq doktoru, professor<br>**Abbasqulu İsmayıl oğlu Nəcəfzadə** |
| Rəsmi opponentlər: | sənətşünaslıq doktoru, professor<br>**İradə Tofiq qızı Köçərli** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**Ağahüseyn Anatollu oğlu Abbasov** |
| | sənətşünaslıq üzrə fəlsəfə doktoru<br>**Səadət Təhmiraz qızı Şirinova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor<br>**Ülviyyə İsmayıl qızı İmanova** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | sənətşünaslıq doktoru, dosent<br>**Leyla Ramiz qızı Zöhrabova** |
| Elmi seminarın sədri: ____________ | sənətşünaslıq doktoru, dosent<br>**Aytac Elxan qızı Rəhimova** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işləmə dərəcəsi.** Azərbaycan incəsənətinin zəngin irsi qədim dövrlərdən başlayaraq bugünədək öz aktuallığını qoruyub saxlayır. Bura incəsənətin bütün növlərini aid etmək olar: ədəbiyyat, rəssamlıq, musiqi alətşünaslığı, memarlıq, rəqs sənəti və digər sənət növləri.

Orta əsrlərdə istifadə edilmiş və sonralar tamamilə unudulmuş bir sıra qədim musiqi alətləri olub ki, bu gün onların rəngarəng səs tembrlərinə ehtiyacımız var. Unudulmuş alətlərinin bərpası və təkmilləşdirilməsi həmin tələbatdan irəli gəlir. Bu baxımdan Azərbaycanda, orta əsr musiqi mədəniyyətində geniş istifadə olunan və sonradan unudulmuş qədim çalğı alətlərinin tədqiqi və bərpası günümüzün aktual məsələlərindən biridir. Həmin xüsusda tanınmış virtuoz-novator ifaçı Ələkbər Əsgərovun nəfəs musiqi alətlərinin inkişafına dair etdiyi özünəməxsus konstruktiv dəyişikliklər və düzəltdiyi alətlərin çalğı xüsusiyyətlərinin öyrənilməsi bu gün öz aktuallığını qoruyub saxlamaqdadır.

Azərbaycan alətşünaslıq elmi, eləcə də ayrı-ayrı ifaçılarımızın yaradıcılığı ilk baxışdan kifayət qədər tədqiq olunmuş görünsə də, müasir dövrümüzdə belə məsələlərin yeni kontekstdə araşdırılmasına böyük ehtiyac vardır. Buna əsaslanaraq Ələkbər Əsgərovun çoxşaxəli yaradıcılıq irsi (səhnə fəaliyyəti, bəstələdiyi rəng və rəqs melodiyaları, bir neçə nəfəs çalğı alətinin təkmilləşdirməsi, pedaqoji və ansambl fəaliyyəti və s.) dissertasiya işinin əsas mövzusuna çevrilmişdir.

Ümumilikdə təqdim olunan dissertasiya mövzusu instrumental ifaçılıq sənətinin aktual məsələlərini özündə əks etdirdiyi üçün gündəmə gəlmişdir. Dissertasiya işi dünənin, bu günün və sabahın mövzusu olduğundan bütün dövrlər üçün öz aktuallığını saxlaya bilər.

Tədqiqat işini yazmağa başlayarkən Ələkbər Əsgərovun bütün arxiv sənədlərinə müraciət olunmuş və onları işin tərkib hissəsinə daxil etmişik. Ələkbər Əsgərovun şəxsi arxivinə nəzər yetirdikdə, onun yaradıcılığının çoxşaxəli və rəngarəng olduğu nəzər-diqqətdən yayınmır. Ustad sənətkarımız uzun illər ərzində öz yaradıcılığında təkrarolunmaz özünəməxsus ifaçılıq üslubunu yaratmış və bu fərqlilik ona sənət aləmində başqalarından seçilən "Ələkbər Əsgərov yolu"nu gündəmə gətirmişdir.

Ələkbər müəllim ifaçılıq sənətindəki xüsusi improvizələri, bəstələdiyi rəqs melodiyaları və muğam rəngləri, pedaqoji fəaliyyəti, ansambl və orkestr yaradıcılığındakı solo performansları ilə xalqın sevincini və musiqiçilərin diqqətini özünə çəkmişdir.

Müraciət etdiyimiz dissertasiya mövzusu toplanılmış materiallara əsaslanaraq demək olar ki, çağdaş dövrümüzdə də öz aktuallığını və müasirliyini təsdiq etdirməkdədir.

Dissertasiya işində Azərbaycan musiqi elminə yeniliklər gətirmiş alimlərin dəyərli fikirləri də öz əksini tapmaqdadır.Burada görkəmli bəstəkarların əsərləri və musiqişünasların elmi risalələri xüsusi yer alır. Məsələn, Əbu-Nəsr Fərabi (873–950)[1], Səfiəddin Urməvi (1216–1294)[2] Əbdülqadir Marağalı (1353–1435)[3], Mirzə bəy (XVI–XVII əsrlər)[4], Üzeyir Hacıbəyli (1885–1948)[5], Süleyman

---

[1] Axundova, E.A. İslam musiqi mədəniyyətində Əl-Fərabinin elmi-nəzəri tədqiqatları və ixtiraları (Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya) // – Bakı: – 2016. – 128 s.; Əbu Nəsr Əl-Fərabi ət-Türki / Elmlərin təsnifatı (orijinalda – "İhsaül-Ülum") // – Bakı: Adiloğlu, – 2006. – 212 s.; Fərabi, Ə.N. Kitabül-Musiqiyül-Kəbir / Fars dilində, ərəbcədən farscaya tərcümə: Əbülfəzl Bafəndeyi-İslamdust // – Tehran: Part, – 1996 (1375, hicri). – 220 s.; Fərabi, Ə.N. Kitabül-Musiqiyül-Kəbir / Əlyazmanın nəşrə hazırlanması və "Ön söz" – Q.A.M.Xaşba, şərhlər – N.A.Əl-Xifni // – Qahirə: – 1967. – 625 s.; Аль-Фараби. Трактаты о музыке и поэзии. АН СССР // – Алма-Ата: Гылым, – 1992. – 456 с.

[2] Səfərova, Z.Y. Səfiəddin Urməvi // – Bakı: Ergün, – 1995, – 160 s.; Urməvi, S. Kitabül-Ədvar // – Bakı: Şərq-Qərb, – 2006. – 107 s.; Urməvi, S. Kompozisiya nisbətləri və ritm elmi haqqında "Şərəfiyyə" risaləsi // – Bakı: Şərq-Qərb, – 2006. – 159 s.

[3] Marağalı Əbdülqadir. Musiqi alətləri və onların növləri / Farscadan tərcümə: M.Müsəddiqindir, "Qobustan" jurnalı // – 1977. – №1. – s. 74-79; Bardakçı, M.G. Maragalı Abdülkadir // – İstanbul: Pan Yayıncılık, – 1986. – 200 sh.; Агаева, С.Х. Абдулгадир Мараги // – Баку: Язычы, – 1983. – 46 с.

[4] Mirzə bəy. Musiqi risaləsi (XVII əsr) / G.B.Şamilli, farscadan tərcümə, ön söz, izah və şərhlər // – Bakı: Azərbaycan, – 1995. – 88 s.

[5] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları // – Bakı: Apostrof Çap Evi, – 2010. – 176 s.; Hacıbəyli, Ü.Ə. Azərbaycan türklərinin musiqisi haqqında / Ön söz və lüğətin müəllifi Əliyeva, F.Ş. // – Bakı: Adiloğlu, – 2005. – 74 s.; Hacıbəyli, Ü.Ə. Bədii və publisistik əsərlər // – Bakı: Şərq-Qərb, – 2008. – 544 s.; Hacıbəyli, Ü.Ə. Ömür salnaməsi. 1885–1948 [Biblioqrafiya] // – Bakı: Şərq-Qərb, – 2008. – 392 s.; Hacıbəyli, Ü.Ə. Seçilmiş əsərləri [İki cilddə] // – Bakı: Şərq-Qərb, – Cild 1. – 2005. – 408 s.; Hacıbəyli, Ü.Ə. Seçilmiş əsərləri [İki cilddə] // – Bakı: Şərq-Qərb, – Cild 1. – 2005. – 456 s.;

Ələsgərov (1924–2000)[6] və başqa bu kimi görkəmli musiqişünas-alimlərin adlarını sadalamaq yerinə düşür. Orqanoloq alimlərdən Səadət Abdullayeva (1940–2017)[7], Məcnun Kərimov (1945–2013)[8], Zakir Mirzəyev[9], Abbasqulu Nəcəfzadə[10], Əhsən Rəhmanlı[11], Kamal Həsənov (1925–2007)[12], Rafiq İmrani[13], Sənubər Bağırova[14], İlqar

---

[6] Ələsgərov, S.Ə., Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri və orkestrləşdirmə // – Bakı: Maarif, – 1996. – 174 s.

[7] Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat) // – Bakı: Adiloğlu, – 2002. – 454 s.; Abdullayeva, S.A. Azərbaycan folklorunda çalğı alətləri // – Bakı: Adiloğlu, – 2007. – 216 s.; Abdullayeva, S.A. Azərbaycan musiqisi və təsviri sənət // – Bakı: Oğuz Eli, – 2010. – 416 s.; Abdullayeva, S.A. Azərbaycan çalğı alətləri dünyanı valeh edir // – Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2016. – 288 s.; Abdullayeva, S.A. Nizamidə musiqi, musiqidə Nizami // – Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2018. – 360 s.;

[8] Kərimov, M.T. Azərbaycan musiqi alətləri // – Bakı: Yeni Nəsil, – 2002. – 175 s.; Kərim, M.T. Azərbaycan musiqi alətləri // – Bakı: Yeni Nəsil, – 2009. – 184 s.; Kərim, M.T. Azərbaycan musiqi alətləri // – Bakı: Mütərcim, – 2011. – 96 s.

[9] Kərimov, M.T. Azərbaycan musiqi alətləri // – Bakı: Yeni Nəsil, – 2002. – 175 s.; Kərim, M.T. Azərbaycan musiqi alətləri // – Bakı: Yeni Nəsil, – 2009. – 184 s.; Kərim, M.T. Azərbaycan musiqi alətləri // – Bakı: Mütərcim, – 2011. – 96 s.

[10] Nəcəfzadə, A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti [Yenidən işlənmiş II nəşr] // – Bakı: MBM, – 2004. – 224 s.; Nəcəfzadə, A.İ. Balabançı Həsən dayının gülməcələri // – Bakı: Min bir mahnı MMC, – 2004. – 80 s.; Nəcəfzadə, A.İ. Müşfiqin duyğu yarpaqları // – Bakı: Təhsil, – 2009. – 128 s.; Nəcəfzadə, A.İ. Xalq çalğı alətlərinin tədrisi metodikası [Dərs vəsaiti, yenidən işlənmiş II nəşr] // – Bakı: MBM, – 2012. – 92 s.; Nəcəfzadə, A.İ. Etnoorqanologiya [Musiqi təmayüllü ali məktəblər üçün dərslik] // – Bakı: Ecoprint, – 2016. – 304 s.; Nəcəfzadə, A.İ., Məmmədəliyev V.M. Muğam [Ali musiqi məktəbləri üçün dərs vəsaiti] // – Bakı: Ecoprint, – 2017. – 160 s.; Nəcəfzadə, A.İ. Sənətşünaslıq (6213.01 – Musiqi sənəti) üzrə elmi-tədqiqat işlərinin yazılışına dair tövsiyələr [Metodiki vəsait] // – Bakı: Ecoprint, – 2017. – 56 s.; Nəcəfzadə, A.İ. "Kitabi-Dədə Qorqud" dastanında çalğı alətləri [Tədqiqat və lüğət] // – Bakı: Elm və təhsil, – 2017. – 264 s.; Nəcəfzadə, A.İ. Musiqi. Azərbaycan incəsənət tarixi [Beş cilddə] // – Bakı: Şərq-Qərb, – Cild 2. – 2018. – 328 s.; Nəcəfzadə, A.İ. Ud çalğı aləti Azərbaycan qaynaqlarında [Tədqiqat və lüğət] // – Bakı: Xəzər Universitəsi, – 2019. – 160 s.; Nəcəfzadə A.İ. Nizami Gəncəvinin yaradıcılığında musiqi alətləri // – Bakı: Aspoliqraf, – 2022. – 272 s.; Nəcəfzadə, A.İ. Alim Qasımov haqqında düşüncələrim (Dahi sənətkarın 65 illiyinə həsr olunur) // – Bakı: Azərbaycan, – 2022. – 120 s.

[11] Rəhmanlı, Ə.M. Azərbaycanda klarnet ifaçılığı sənəti // – Bakı: MBM, – 2010. – 982 s.

[12] Həsənov, K.N. Qədim Azərbaycan xalq rəqsləri // – Bakı: İşıq, – 1983. – 60 s.; Həsənov, K.N. Azərbaycan qədim folklor rəqsləri // – Bakı: İşıq, – 1988. – 130 s.

İmamverdiyev[15] kimi qonşu sahə alimlərinin yaradıcılığı diqqət mərkəzində olmuşdur.

Azərbaycanın görkəmli sənətkarları – Əlibaba Məmmədov (1930–2022), Nəriman Əzimov (1936–2016), Zakir Mirzəyev və başqalarının rəy və xatirələrini də geniş şəkildə dissertasiya işinin "Əlavələr" bölməsinə daxil etmişik. Bu bölümdə Ələkbər Əsgərovun yaradıcılığından ruhlanan tanınmış alimlər Əhsən Rəhmanlı və İlqar İmamaverdiyev tərəfindən yazılan və ona həsr olunan şeir nümunələri də təqdim olunur.

Ümumilikdə dissertasiya işinin ərsəyə gəlməsində faydalandığımız digər qaynaqlardan aldığımız məlumatlar vacib əhəmiyyət kəsb etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini ustad sənətkarın çoxşaxəli yaradıcılıq irsi təşkil edir.

Mövzunun predmeti – Ələkbər Əsgərovun ifaçılıq xüsusiyyətləri; bəstələdiyi rəqs melodiyaları və muğam rəngləri; ansambl və orkestr yaradıcılığı; pedaqoji fəaliyyəti; Azərbaycanın qədim musiqi alətləri balaban və zurna, həmçinin, Avropa mənşəli klarnetin konstruktiv dəyişikliklərindən ibarətdir. Burada virtuoz-novator ifaçı Ələkbər Əsgərovun sənət dünyasının ən mühüm və özünəməxsus xüsusiyyətləri də tədqiqat predmetinə çevrilmişdir.

---

[13] İmrani, R.H. Azərbaycan muğam janrının yaranması və inkişaf tarixi // – Bakı: N.Tusi adına ADPU-nun mətbəəsi, – 1994. – 252 s.; İmrani, R.H. Muğam tarixi [I cild] // – Bakı: Elm, – 1998. – 280 s.; İmrani, R.H. Azərbaycanın musiqi tarixi (ən qədim dövrlərdən bizim eraya qədər) // – Bakı: Elm, – 1999. – 148 s.; İmrani, R.H. Muğam şumer dövründən başlayır // – Bakı: Elm, – 1999. – 88 s.

[14] Bağırova, S.Y. Azərbaycan muğamı (məqalələr və tədqiqatlar) [İki cilddə] // – Bakı: Elm, – Cild 1. – 2007. – 298 s.; Bağırova, S.Y. Azərbaycan muğamı (məqalələr və tədqiqatlar) [İki cilddə] // – Bakı: Elm, – Cild 2. – 2007. – 151 s.

[15] İmamverdiyev, İ.C. Azərbaycan muğam dəramədləri və rəngləri [Üç cilddə] // – Bakı: Nurlan, – Cild 1. – 2007. – 90 s.; İmamverdiyev, İ.C. Azərbaycan muğam dəramədləri və rəngləri [Üç cilddə] // – Bakı: Nurlan, – Cild 2. – 2007. – 98 s.; İmamverdiyev, İ.C. Azərbaycan muğam dəramədləri və rəngləri [Üç cilddə] // – Bakı: Şur, – Cild 3. – 2009. – 80 s.; İmamverdiyev, İ.C. Azərbaycan rəqs havalar [İki cilddə] // – Bakı: Nurlan, – Cild 1. – 2007. – 168 s.; İmamverdiyev, İ.C. Azərbaycan rəqs havaları [İki cilddə] // – Bakı: Nurlan, – Cild 2.– 2007. – 172 s.; İmamverdiyev, İ.C. Azərbaycan muğam inciləri (dəramədlər, rənglər, diringilər) // – Bakı: Nafta-Pres, – 2010. – 542 s.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Ələkbər Əsgərovun yaradıcılığının bütün parametrlərini öyrənməkdən ibarətdir. Bu mövzu günümüzədək dissertasiya səviyyəsində tədqiq olunmadığı üçün həmin məsələnin ətraflı araşdırılmasını qarşımızda bir məqsəd kimi qoymuşuq. Məqsədə nail olmaq üçün aşağıdakı bəzi vəzifələrin həlli tələb olunur:

– Milli nəfəs çalğı alətləri balaban, zurna və Avropa mənşəlli klarnetin inkişaf yollarını nəzərdən keçirmək;

– Ələkbər Əsgərovun balaban alətinin tədrisi üçün sadədən mürəkkəbə doğru prinsipi ilə hazırladığı köçürmə və işləmələrə diqqət yetirmək;

– Ələkbər Əsgərovun iki klapanlı balaban alətini orqanoloji baxımdan araşdırmaq;

– Ələkbər Əsgərovun uzunmüddətli pedaqoji fəaliyyətini incələmək;

– Ələkbər Əsgərovun hazırladığı qoşazurna alətinin rekonstruksiyasını təqdim etmək;

– Ələkbər Əsgərovun klarnet üzərində apardığı islahatlara nəzər yetirmək;

– Ələkbər Əsgərovun rəhbəri olan “Dügah” instrumental-folklor ansamblının yaranma tarixini öyrənmək və spesifik xüsusiyyətlərini mənimsəmək;

– Ələkbər Əsgərovun Azərbaycanın xalq rəqslərində çalğı üslubunu incələmək;

– Ələkbər Əsgərovun bəstələdiyi rəqslərin struktur özəlliklərini öyrənmək;

– Ələkbər Əsgərovun muğam ifaçılıq sənətində özünəməxsus çalğı xüsusiyyətlərini araşdırmaq;

– Ələkbər Əsgərovun bəstələdiyi muğam rənglərini nəzərdən keçirmək.

**Tədqiqat metodları.** Dissertasiya işində musiqişünaslıqda qəbul edilmiş bir sıra ümumi metodlardan istifadə olunmuşdur. Bunlar nəzəri, tarixi, analitik, müqayisəli təhlil və sairə kimi metodlardır.

Tədqiqat işində bir neçə musiqişünas-alimin not köçürmələri müqayisəli şəkildə təqdim edilmişdir. Bu da müqayisəli təhlil

metoduna aid oluna bilər. Musiqişünas alim İlqar İmamverdiyev, Malik Quliyev, Arzu Quliyeva və Mahirə Quliyevanın not köçürmələri təhlil edilmişdir. Eləcə də, Ələkbər Əsgərovun rəqs melodiyaları üzərində sintezin aşkarlanması nəzərə çatdırılır.

Aparılan araşdırmaların əsas metodoloji bazasını Üzeyir Hacıbəylinin, eləcə də Azərbaycan musiqişünasları və musiqi xadimləri – Əfrasiyab Bədəlbəylinin, Məmmədsaleh İsmayılovun, Ramiz Zöhrabovun, Zemfira Səfərovanın, Rəna Məmmədovanın, Tariyel Məmmədovun, Leyla Məmmədovanın, eləcə də, orqanologiya sahəsində çalışan alimlərimizdən – Səadət Abdullayevanın, Məcnun Kərimovun (Kərim), Rafiq İmraninin, Zakir Mirzəyevin, Abbasqulu Nəcəfzadənin, Sürayyə Ağayevanın elmi müddəalarından qaynaq kimi istifadə olunmuşdur.

Azərbaycan musiqi tarixinə, orqanoloji tədqiqatlara, rəqs sənətinə həsr olunmuş digər alimlərin də araşdırmaları, elmi baxışları bizim işimizin metodoloji bazasına çevrilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində aparılan tədqiqatların əsas istiqamətləri müdafiəyə çıxarılan əsas müddəalar ilə bağlıdır. Tədqiqat işində təqdim olunan əsas müddəalar bunlardır:

– Ələkbər Əsgərov Avropa musiqisinə xas olan bir sıra elementləri (major-minor qarşıdurması, tonal sekvensiyalar, variasiyalar, müxtəlif çalğı fiqurasiyaları) ifaçılıq sənətində tədbiq edərək Azərbaycan məqamları arasında sintez yaratmışdır.

– Ələkbər Əsgərovun yazdığı köçürmə və işləmələrinin tədrisdə böyük rolu olmuşdur.

– “Dügah” instrumental-folklor ansamblının yaradılmasında məqsəd unudulmaqda olan eyniadlı muğamın gündəmə gətirilməsi fikri olmuşdur.

– Ələkbər Əsgərov iki klapanlı balaban, qoşazurna və “As” növlü klarnet alətlərini hazırlamaqla ifaçılıq sənətinə yeni imkanlar gətirmişdir.

– Ələkbər Əsgərov milli musiqi sənətinin incisi sayılan muğamlarımızı, həmçinin, Azərbaycan nəfəs çalğı alətlərinin özəlliklərini və incəliklərini mükəmməl bilirdi. Onun ifa etdiyi hər bir muğam alətlərin çalğı imkanlarına uyğunlaşdırılmış və spesifik

xüsusiyyətlərinə görə səsləndirilmişdir. Ələkbər Əsgərov hər bir muğam əsasında instrumental rəng bəstələmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat nəfəs çalğı alətləri üzrə virtuoz-novator ifaçı Ələkbər Əsgərovun yaradıcılığı haqqında yazılmış ilk dissertasiya işi olduğundan mövzunun özü ümumilikdə elmi yenilik kimi dəyərləndirilə bilər. Burada bir sıra digər yeniliklər də özünü göstərməkdədir, onları sistemləşdirilmiş şəkildə təqdim edirik:

– Bülbülün Ev Muzeyində qorunan və 1937-ci ildə soyadları göstərilməyən Şəki balabançalanları Həbibullah və Həsənin ifasından fonovalikə yazılmış adı bəlli olmayan bir melodiya ilk dəfə dissertasiya işində araşdırılmışdır. Bəlli olur ki, bu sənətkarlardan biri Şəkinin Kiçik Dəhnə kəndində yaşamış məşhur zurna-balaban ifaçısı Həbibullah Cəfərov (1902–1987) olmuşdur. Adı Həsən kimi qeyd olunan digər balabançının soyadının Məmmədov olduğunu müəyyənləşdirdik. Belə ki, başqa bir fonovalikdə Həsənin soyadı Məmmədov göstərilmişdir. Həmçinin Həbibullah Cəfərovun toy fəaliyyətini izləyərkən müəyyən edildi ki, Həsən Məmmədov el şənliklərində uzun müddət ona dəmkeşlik etmişdir. Aparılan araşdırmalar nəticəsində görünür ki, fonovalikdəki balaban ifaçıları məhz Həbibullah Cəfərov və Həsən Məmmədov olmuşlar.

– *"Balaban köçdü"* yallısının adındakı balaban sözü bizim araşdırmaya qədər musiqi aləti olduğu kimi bildirilmişdir. Lakin tədqiqat nəticəsində məlum oldu ki, balaban burada musiqi aləti deyil, mövsümlə əlaqədər Ordubada gələn şahin quşunun bir növüdür. Beləliklə, ilk dəfə adıçəkilən yallının adı düzgün şəkildə açıqlanmışdır.

– Ədəbi mənbələrə istinad etməklə ilk dəfə küy sözünün muğam mənasında işlədildiyi aşkarlanmışdır. Nemətullah Kişvəri (1445–1525) bir şeirində *"muğan küyü"* dedikdə muğların muğam oxumasını nəzərdə tuturmuş. Deməli, müasir qazax və qırğızlar kimi, orta əsrlərdə Azərbaycan türkü də küy (kü) sözünü muğam mənasında işlətmiş və sonrakı mərhələlərdə bu söz mahiyyətini bir qədər dəyişmişdir.

– Balabanla bağlı yazılan çox tanınmış el bayatısında 3-cü misrada heca pozğunluğu müşahidə edilir. İlk dəfə bayatıdakı heca

uyğunsuzluğu tərəfimizdən aşkarlanmışdır və diqqətə cəlb edilmişdir.

– Ələkbər Əsgərovun hazırladığı iki klapanlı balaban aləti.

– Ələkbər Əsgərovun zurna əsasında hazırladığı qoşazurna aləti.

– Ələkbər Əsgərovun klarnet aləti üzərində apardığı islahatlar və hazırladığı "As" köklü aləti.

– Ələkbər Əsgərov unudulmaqda olan "Dügah" muğamını gündəmə gətirərək Azərbaycanda ilk instrumental-folklor ansamblını yaratmışdır və eyniadlı bir rəng bəstələmişdir. Ansamblın bütün konsert proqramlarında əvvəlcə "Dügah" rəngi, sonra isə digər əsərlər səsləndirilirdi. Beləliklə də, "Dügah" muğamı yenidən tədris proqramlarına daxil edilmişdir.

– Ələkbər Əsgərovun bəstələdiyi melodiyaların Azərbaycan və Avropa musiqi ənənələrinə uyğunlaşdırılmış struktur özəllikləri, eləcə də variasiya və sekvensiya prinsiplərinə əsaslanan yeni ifaçılıq yanaşması aşkarlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Araşdırmanın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın əldə olunan ən mühüm elmi müddəalarından və bəzi materiallarından musiqi mədəniyyətinin tarixini öyrənilməsində və instrumental ifaçılıq sənəti ilə bağlı elmi araşdırmalarda istifadə edilə bilər.

Təqdim olunan dissertasiya işinin müəyyən müddəalarından Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universiteti, Bakı Xoreoqrafiya Akademiyası, Aazərbaycan Pedaqoji Universiteti, Xəzər Universiteti, Naxçıvan Dövlət Universiteti kimi ali təhsil ocaqlarında musiqişünaslıqla bağlı fənlərin tədrisində köməkçi vəsait kimi idtifadə edilməsi mümkündür. Adıçəkilən musiqi təmayüllü ali təhsil ocaqlarında və kolleclərdə tədris olunan "Azərbaycan xalq rəqs musiqisi", "Etnoorqanologiya", "Alətşünaslıq", "Aranjiman", "Qohum alətlər", "Ansambl", "Azərbaycan xalq çalğı alətlərinin tədrisi metodikası" və balaban üzrə "İxtisas-not", "İxtisas-muğam" kimi fənlərdə dissertasiyanın bəzi materiallarından əlavə vəsait kimi faydalanmaq mümkündür.

**Aprobasiyası və tədbiqi.** Təqdim edilən dissertasiya işinin mövzusuna uyğun "Ələkbər Əsgərovun rəqs melodiyaları və muğam

rəngləri" və "Ələkbər Əsgərovun balaban aləti üçün köçürmələri və işləmələri" adlı tədris vəsaitləri mütəxəssislər tərəfindən müzakirə olunduqdan sonra nəşr etdirilmişdir. Tədqiqatın əsas müddəaları iddiaçının yerli, beynəlxalq elmi konfrans və simpoziumlardakı çıxışlarında öz əksini tapmış və çap olunmuşdur. Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi beynəlxalq xülasələndirmə və indeksləşmə bazasına daxil olan yerli və beynəlxalq jurnallarda dissertasiyanın materialları və elmi nəticələri orijinal məqalə şəklində çap edilmişdir: "Konservatoriya", "Elmi İş", "Musiqi Dünyası", "İncəsənət və Mədəniyyət Problemləri", "Türk Müziği", "Музыка. Искусство, наука, практика", "Исполнительское искусство: наука и практика", "Türksoylu xalqların Musiqi Mədəniyyətinin Tədqiqi Problemləri", "Qloballaşan Dünyada Musiqi Ənənələri", "Doktorantların və Gənc Tədqiqatçıların XXII Respublika Elmi Konfransı", VII Uluslararası Müzik ve Dans Kongresi", "6 th İnternational Culture, ART and Literature Congress", "Avrasiya Akademisi Çalışmaları" və s.

Adıçəkilən elmi nəşrlərdə iddiaçının 10 məqaləsi və 7 konfrans məruzəsi öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Etnomusiqişünaslıq" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya "Giriş", üç "Fəsil", "Nəticə", "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavlər" adlı struktur bölmələrindən ibarətdir. I Fəsil üç paraqrafdan ibarətdir (1.1., 1.2., 1.3.). İkinci parqrafa bir bənd əlavə edilmişdir (1.2.1.); II fəsil üç paraqrafdan ibarətdir (2.1., 2.2., 2.3.) və birinci paraqrafa bir bənd əlavə edilmişdir (2.1.1.); III fəsil də üç paraqrafdan ibarətdir. "Giriş" 8 səhifə olmaqla 12.535 işarədən, "I Fəsil" 30 səhifə olmaqla 47,346 işarədən, "II Fəsil" 42 səhifə olmaqla 60.776 işarədən, "III Fəsil" 53 səhifə olmaqla 72.756 işarədən ibarətdir, "Nəticə" 6 səhifə olmaqla 9.653 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr" istisna olmaqla ümumilikdə 139 səhifə və 203.066 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işləmə dərəcəsi əsaslandırılmış, onun elmi yeniliyi açıqlanmış, tədqiqatın məqsəd və vəzifələri, o cümlədən elmi araşdırmada tədbiq olunan metodlar, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilmişdir.

Dissertasiyanın **I fəsli "Ələkbər Əsgərovun çoxşaxəli yaradıcılıq fəaliyyəti"** adlanır. Bu fəsil üç paraqrafdan (ikinci paraqrafa bir bənd əlavə olunmaqla) ibarətdir.

**1.1. "Ələkbər Əsgərovun həyatı və yaradıcılıq fəaliyyətinin istiqamətləri"** adlanır. Burada sənətkarın keçdiyi sənət yollarına diqqət yetirilir:

1951-ci ildə Musiqili Komediya teatrının nəzdində fəaliyyət göstərən xalq çalğı alətləri ansamblında balaban ifaçısı kimi fəaliyyət göstərmişdir.

1957-ci ildə Azərbaycan Dövlət Estrada orkestrinin solisti klarnet ifaçısı kimi çalışmışdır.

1958-ci ildə Səid Rüstəmovun rəhbərliyi ilə Azərbaycan xalq çalğı alətləri orkestrində "bas balaban" ifaçısı kimi işləmişdir.

1959-cu ildə Asəf Zeynallı adına Musiqi məktəbinə balaban ixtisası üzrə qəbul olur və həmin illərdə Əlibaba Məmmədovun, həmçinin Əliağa Quliyevin ansambllarına dəvət almışdır.

1965-ci ildə Ələkbər Əsgərov Azərbaycan Dövlət Filarmoniyasında balaban ifaçısı kimi çalışmış və bir il sonra Soltan Hacıbəyov adına Sumqayıt Musiqi məktəbinə müəllim vəzifəsinə təyin edilmişdir. Ələkbər müəllim ömrünün sonunadək (1995) orada baş müəllim vəzifəsində işləmişdir.

1973-cü ildən müəllimlik sənəti ilə yanaşı, keçmiş SSRİ Xalq artisti Rəşid Behbudovun rəhbərlik etdiyi Dövlət Mahnı və Rəqs Teatrında solist kimi çalışmışdır.

1981-ci ildə Ələkbər Əsgərov Sumqayıt şəhər Musiqi Texnikumunda "Dügah" instrumental-folklor ansamblını yaratmışdır.

**1.2. "Ələkbər Əsgərovun pedaqoji fəaliyyəti"** adlanır. Tədrsisdən danışarkən Ələkbər müəllimin pedaqoji fəaliyyətini xüsusi qeyd etməliyik. O, 1966-cı ildən Soltan Hacıbəyov adına

Sumqayıt Orta İxtisas Musiqi Məktəbində pedaqoji fəaliyyətinə balaban ixtisası üzrə başlamışdır. İlk gündən onun qarşısında mühüm məsələlər dururdu: tələbələrin peşəkarlığını artırmaq və balaban alətinin texniki imkanlarını genişləndirmək. Ələkbər müəllim təkcə balaban "İxtisas not" dəsləri üzrə deyil, eləcə də "Alətşünaslıq", "Partitura oxunuşu", "Ansambl yaradıcılığı" kimi digər köməkçi fənlərdən də dərslər verirdi. Ələkbər müəllimin tələbələri sırasında elmlər doktoru, professor Abbasqulu Nəcəfzadə, Xalq artisti və dosent Elşən Mansurov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Səadət Təhmiraz qızı və başqalarının adları çəkilə bilər. Onlar ustadlarının adını ehtiramla xatırlayırlar .

**1.2.1. "Balaban ifaçılıq məktəbinə dair Ələkbər Əsgərovun köçürmə və işləmələri"** adlı birinci fəslin ikinci paraqrafına bir bənd əlavə edilmişdir. Bu bənddə Ələkbər Əsgərovun köçürmə və işləmələrindən söz açılır.

Ələkbər müəllim Azərbaycan və dünya xalqlarının bəstəkar əsərlərini balaban alətinin səsdüzümünə uyğun işləmiş və tədris üçün repertuar hazırlamışdır. Bu köçürmələr arxiv sənədləri arasında əlyazma halında qorunub saxlanılır. Lakin Ələkbər Əsgərov tərəfindən əlnən yazılan köçürmələr Ələkbər Əsgərovun ölümündən sonra tərəfimizdən 2021-ci ildə nəşr etdirildi.

Notoqrafiyada Azərbaycan xalq musiqiləri ilə yanaşı, müxtəlif bəstəkarların əsərləri də yer almışdır. Burada Üzeyir Hacıbəylinin "Əmək işığı" ("Лучи труда"), Qəmbər Hüseynlinin "Cücələrim" ("Цыплята"), Vasiliy Pavloviç Solovyov-Sedoyun "Moskva gecələri" ("Подмосковные вечера"), Mixail Qlinkanın "Əsrarəngiz anlar mənim yadımda" ("Я помню чудное мгновенье"), Ağabacı Rzayevanın "Oxuma gözəl" və başqa bəstəkarların əsərləri yer almışdır. Bu köçürmə və işləmələr iki hissədən ibarətdir. Həmin topluya ifa üçün nəzərdə tutulmuş əsərlər, texniki çalışmalar daxil edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sənubər Bağırovanın yazdıqlarından: *"Ələkbər Əsgərovun balaban üçün köçürmələri təəssüf ki, onun bəstəkarlıq yaradıcılığı ilə eyni taleyi yaşadı. O, öz köçürmələrini tələbə və həmkarları arasında səxavətlə bölüşürdü. Ələkbər müəllimin notları*

*əllərdə gəzir və bu repertuar ümumi sərvətə çevrilmişdir. Təəccüblü deyil ki, 1995-ci ildə, ölümündən sonra onun not köçürmələrinin əksəriyyəti bəzi tələbələri tərəfindən tərtib edilmişdir. Əlbəttə ki, zamanında bu kitab nəşr edilsəydi, bizim milli sərvətimiz olan balaban aləti UNESCO-da erməni aləti kimi qəbul olunmazdı".*

**1.3. "Ələkbər Əsgərovun yaratdığı "Dügah" instrumental-folklor ansamblının spesifik xüsusiyyətləri"** adlanır. Təqdim edilən dissertasiyanın ən mühüm predmetlərindən biri "Dügah" instrumental-folklor ansamblının yaranma tarixi və özəlliyidir. Qeyd etməliyik ki, bu ansambl 1981-ci ildən fəaliyyət göstərməyə başlamış və öz uğuru ilə rəhbər, eləcə də, yenilikci-virtuoz ifaçı Ələkbər Əsgərova borcludur. Belə bir folklor ansamblı yaratmaq ideyası məhz onun tərəfindən irəli sürülmüşdür. Azərbaycanda ilk dəfə yaradılan "Dügah" instrumental-folklor ansamblının ifaçı heyətinə heç bir müğənni dəvət edilmirdi. Ələkbər Əsgərovun istəyi ilə ansamblın intrumental tərkibinə qədim musiqi alətləri – tar, kamança, ud, saz, zərb, nağara, qanun, zurna, ney, balaban və tütək daxil edilmişdir. Ələkbər müəllim hər bir ifaçının fikrinə diqqət və hörmətlə yanaşardı. Öz üzərində yorulmadan çalışan ustad sənətkarımız çalğı improvizasiyalarında təkrarçılığa yol vermirdi və bunu ansambl ifaçılığına da tətbiq etmişdir.

Dissertasiyanın **II fəsli "Ələkbər Əsgərovun balaban, zurna və klarnet alətləri üzərində apardığı islahatlar"** adlanır. Bu fəsil üç paraqraf və ibir bənddən ibarətdir.

**2.1. "Balaban aləti tarixi və ədəbi nümunələrdə"** adlanır. Əsrlər boyu balabanın incə və həzin səsi Azərbaycan türklərinin musiqi dünyasının – müxtəlif el mərasimlərinin, toy şənliklərinin və xüsusən də Novruzun bəzəyinə çevrilmişdir. Bir çox nəfəs çalğı alətlərinin xüsusiyyətləri haqqında məlumat vermək mümkündür, lakin tədqiqatın vacib məsələlərindən biri – balaban alətinin inkişaf mərhələlərinin araşdırılması məqsədəuyğun hesab edilir. Bu paraqrafda bir neçə ədəbi nümunələr təqdim edilmişdir. Ən çox geniş yayılmış bir el bayatısında balabanla bağlı belə deyilir:

*"Əzizim, balabanı,* (7 heca)
*Asta çal, balabanı.* (7 heca)
*Hamının balası gəldi* (8 heca)
*Bəs mənim balam hanı?"...* (7 heca)

Araşdırmalara əsasən bayatının 3-cü misrasında heca pozğunluğunu müşahidə edirik. Fikrimizcə, 3-cü misradakı *“Hamının balası gəldi”* (8 heca) əvəzinə *“Gedənlər dönüb gəldi”* (7 heca) və yaxud *“Hər kəs evinə gəldi”* (7 heca) deyilsə, hecalar və şeirin ritmi qaydaya düşə bilər. Beləliklə, ilk dəfə bayatıdakı bu heca uyğunsuzluğuna tərəfimizdən diqqət yetirilərək həmin problem aradan qaldırılmışdır.

**2.1.1. “Balabanın növləri, təkmilləşdirilməsi və Ələkbər Əsgərovun iki klapanlı aləti”** adlı bu bənddə ibtidai dövrlərdə hazırlanmış balaban alətinin ilkin nümunələri, primitiv konstruksiyaları izlənilir və sonrakı inkişaf mərhələlərində formalaşan yeni növləri təqdim olunur.

Azərbaycanın ənənəvi musiqisində elə bir janr yoxdur ki, orada balaban aləti istifadə olunmasın. Muğam sənətində və instrumental rəqs janrında bu alət xüsusi yer tutur.

Bu paraqrafa Ələkbər Əsgərovun hazırladığı iki klapanlı balabanı təqdim edilir. Onun tərəfindən ilk dəfə hazırlanan iki klapanlı balaban alətinin səs diapazonu II oktavanın “mi” səsinə qədər genişləndirilmişdir. Qeyd edək ki, Ələkbər müəllim bəzi məqamlarda barmaqlarının müdaxiləsi olmadan təmiz “mi” səsini xüsusi üsulla ifa edirdi. Bu üsuldan adətən tələb olunan məqamda, daha dəqiq desək, “mi” tonallıqlı əsərlərin sonunda “mi” səsini fermata edərək ifasını tamamlayardı. Ələkbər müəllim bununla da balaban ifaçılığına yeni çalğı imkanları gətirmişdir.

**2.2. “Ələkbər Əsgərovun zurna əsasında hazırladığı qoşazurna aləti”** adlanır. Ələkbər Əsgərov qoşazurna alətini zurnaya istinadən hazırlamışdır. Əslində bu alət zurnanın növlərindən biri də sayıla bilər. Ələkbər Əsgərovun qoşazurna alətinin quruluşu:

– Qoşazurna – adi zurnadan fərqli olaraq iki mildən hazırlanmışdır.

– Qamışdan hazırlanmış kiçik ikiqat səsoyadıcılar qoşa milə sapla bağlanılır.

– Tağalaq – ifaçının dodaqlarının sürüşməməsi üçün milə taxılan dairəvi hissədir. Bu hissə kəmikdən və ya plastik materialdan hazırlanır.

– Müştük – yuxarıda adıçəkilən bütün detalların (millər, ikiqat qamış-səsoyadıcılar, onların başlıqları, tağalaq) toplusudur.

– Maşa – bəzən çığırtma və yaxud beçə də adlandırılır. Bu hissənin aşağı ucu iki dişli çəngələ bənzəyir və yuxarı hissənin təxminən 20 mm sonrakı hissəsi gövdənin içinə keçirilir.

– Gövdə – ərik ağacından hazırlanmışdır. Borunun sonluğu qıf şəklində genişləndirilir. Qoşazurna aləti haqqında, onun ölçüləri və digər xüsusiyyətləri dissertasiya işində daha geniş təqdim olunur.

**2.3. “Ələkbər Əsgərovun hazırladığı “As” növlü klarnetin quruluşu və özəllikləri”** adlanır. Ələkbər Əsgərov tərəfindən Azərbaycanda ilk dəfə olaraq yeni “As” köklü klarnet növü hazırlanmışdır. Ələkbər Əsgərovun hazırladığı “As” klarnet aləti kök və ölçülərinə görə Avropa istehsalı olan “A” və “B” növlü klarnetlərdən fərqlənir. Bu fərqlilik alətlərin gövdələrinin uzunluğundan, tembr özəlliyi və klapanların tətbiqindən ibarətdir.

Bir çox Azərbaycan klarnet ifaçıları Ələkbər müəllimin tembrini əldə etmək üçün müxtəlif ifa üslublarına müraciət etsələr də, bu tembri əldə edə bilməmişlər, çünki ustadın aləti fərqli kök və quruluş dəyişikliklərinə əsaslanır. Dissertasiya işində Avropa mənşəli “A” və “B” klarnet növləri ilə yanaşı Ələkbər Əsgərovun hazırladığı “As” köklü aləti təqdim olunur və müqayisə edilərək ölçü fərqlilikləri nəzərdən keçirilir.

Ələkbər Əsgərovun hazırladığı “As” növlü klarnetin ümumi uzunluğu və boruağzı detalı digər alətlərin eyniadlı hissələrinə nisbətən uzundur. Orqanologiya elmindən bəllidir ki, hər hansı bir nəfəs çalğı alətinin borusu nə qədər uzun olursa, həmin alətin səsi bir o qədər də bəm səslənir. Ələkbər müəllim hazırladığı yeni növ klarnetdə milli musiqilərlə yanaşı, başqa xalqların musiqilərini də asanlıqla ifa edirdi. Məsələn, onun ifasında səsləndirilən “Bolqar rəqsi” buna misal ola bilər.

Dissertasiyanın **“Ələkbər Əsgərovun çalğı üslubu və bəstələrində innovativ yanaşmalar”** adlanalan III fəslində adından göründüyü kimi, ifaçının özünəməxsus çalğı üslubundan, bəstələdiyi müxtəlif səpkili melodiyalarındakı innovativ yanaşma və xüsusiyyətlərindən bəhs edilir.

**3.1. “Azərbaycanın rəqs sənətində Ələkbər Əsgərovun ifaçılıq xüsusiyyətləri”** adlanır. Azərbaycan xalq yaradıcılığında

rəqs sənəti mühüm yer tutur. Lakin buna baxmayaraq rəqslərin bir qismi unudulmuş və dövrümüzə gəlib çatmamışdır.

Qədim Azərbaycan xalq rəqsləri dedikdə biz keçmiş musiqiçilərin bəstələdiyi, lakin illərlə müəllifləri bilinməyən anonim melodiyaları nəzərdə tuturuq. Bilindiyi kimi, qədim dövrlərdə xalq sənətkarları milli musiqimizi şifahi şəkildə nəsildən-nəslə ötürdüklərindən, bir çox hallarda qədim mahnı və rəqs melodiyaları unudulub və bizim dövrümüzə gəlib çatmamışdır.

Rəqs melodiyalarından ibarət "Azərbaycan rəqs havaları" adlı ilk toplu 1936-ci ildə Səid Rüstəmov tərəfindən nəşr olunmuşdur. Doğrudur, bəzi tədqiqat əsərlərinin istifadə edilmiş ədəbiyyat siyahısında bu əsərin nəşr ili 1937-ci il kimi göstərilir. Əslində, bu toplu bir il əvvəl nəşr edilmişdir. O zaman texniki qüsur baş vermiş və toplunun ili göstərilməmişdir. Əlimizdə həmin nüsxə var, burada toplunun nəşr ili qələmlə 1936-cı ilə aid olduğunu göstərir. Bir neçə ay sonra, növbəti ilin ilk aylarında həmin notoqrafiya 1937-ci il yazılmaqla yenidən nəşr olunur.

Bu paraqrafda xalq rəsləri ifaçılığında Ələkbər Əsgərovun çalğı xüsusiyyətləri diqqətə çatdırılır və bəstələdiyi – "Ədaləti", "Mehribanı", "Natəvanı", "Rasimi", "Zöhrabı", "Kürdü", "Qədim rəqs", "Vüqarı", "Cavidi", "Mətanəti", "Bəxtiyarı", "Maralı" və "Dəyirmandan vağzaladək" kimi rəqs melodiyalarının musiqişünaslar tərəfindən yazılmış not nümunələri təhlil edilir.

**3.2. "Ələkbər Əsgərovun bəstələdiyi rəqslərin struktur özəllikləri"** adlanır. Ələkbər Əsgərovun bəstələdiyi melodiyalar Azərbaycan rəqs musiqisinin nadir incilərindəndir. Onun bəstələrini proqramlı və süjetli musiqilərə aid etmək olar. O, rəqs melodiyalarını ayrı-ayrı şəxslərə həsr etməklə yanaşı, həmin insanların daxili aləmini göstərməyə çalışmışdır.

Qeyd edək ki, Ələkbər Əsgərov bəstələdiyi melodiyalarda Azərbaycanın məqam və Avropa lad quruluşlarına əsaslanaraq (variasiya, sərbəst modulyasiyalar və sekvensiya keçidləri) sintez yaratmışdır. Belə yeniliyi müşahidə etmək üçün Ələkbər Əsgərovun "Zöhrabı" rəqsinə diqqət yetirək.

**"Zöhrabı"** melodiyasını dinləyərkən ilk baxışdan elə təəssürat yaranır ki, bu rəqs bayatı-şiraz məqamı və "Bayatı-Şiraz" muğamı

üzərində qurulub. Lakin biz bütün məqamlarımızın və "Zöhrabı" rəqsinin xüsusiyyətlərini təhlil etdikdən sonra belə bir qənaətə gəldik ki, bu melodiya bayatı-şiraz məqamında deyil və Avropa musiqisinə xas olan major və minor ladlarına (məqam) əsaslanır. Fikrimizi onunla izah edə bilərik ki, hər bir rəqs musiqisində olan məqam dəyişiklikləri öz əksini Azərbaycan muğamlarında tapmalıdır, çünki məqamlarımız eyniadlı muğamlar əsasında qurulub. Bayatı-şiraz məqamında hər hansı bir melodiya bəstələnirsə, deməli, tam olaraq "Bayatı-Şiraz" muğamına və onu təşkil edən şöbələrin istinad pərdələrinə uyğun olmalıdır. Əgər biz rəqs melodiyasında hər hansı bir elementi "Bayatı-Şiraz" muğamı üzərində quruluşunu izah edə bilmiriksə, deməli onun "Bayatı-Şiraz" muğamında olması fikri şübhəlidir. O cümlədən də biz "Zöhrabı" rəqsində bu elementlərə rast gəlirik. Bunu necə izah etmək olar? Rəqsin əvvəlində yer alan musiqi cümlələri ilk baxışdan bayatı-şiraz məqamında səslənir, lakin melodiyanın sonrakı cümlələri variasiya prinsiplərinə əsaslanaraq inkişaf etdirilib. Məsələn, "Zöhrabı" rəqs melodiyası əvvəldə "re" mayəli bayatı-şiraz məqamı üzərində qurulub, lakin sonra rəqsin melodiyası variasiya olunaraq "fa" mayəli rast məqamına keçid alır. Bildiyimizə görə "Bayatı-Şiraz" muğamında elə bir şöbə yoxdur ki, "Mayə"dən kiçik tersiya yuxarı rast məqamına əsaslansın. Bu səbəbdən, "Zöhrabı" melodiyasının sırf bayatı-şiraz məqamı üzərində qurulduğunu demək düzgün olmazdı. Həmin rəqsi biz major və minor prinsipləri ilə qurulduğunu izah edə bilərik. Belə ki, rəqs "re" minor tonallığından başlayır və orta hissəsində paralel "fa" majora yönəldilir. Maraqlı bir fakt da odur ki, bu variasiyalar sekvensiyalar üzərində qurulmuşdur və bu tonal sekvensiyalar davam olunaraq pillə-pillə aşağı düşür. "Fa" səsindən başlayan melodiya sekvensiya yolu ilə "mi" səsindən təkrar olunur və qəribə haldır ki, "mi" səsindən təkrar olunan sekvensiya bizə "mi" mayəli segah məqamını xatırladır. Lakin bildiyimizə görə, bayatı-şiraz məqamında da "Mayə"dən bir ton yuxarı segah məqamına əsaslanan şöbə yoxdur. Bu səbəbdən biz, melodiyanın inkişafını tonal sekvensiyaların variasiya prinsipləri əsasında qurulduğunu qəbul edə bilərik. Ələkbər Əsgərovun dahiliyi onda idi ki, göründüyü kimi, Avropa musiqisinə xas olan major və minor ladlarında musiqi bəstəliyir, amma heç kəs

onu hiss etmir və bizim xalq məqamlarında olduğu kimi qəbul edilir. Haqqında bəhs etdiyimiz "Zöhrabı" rəqsi bəzi bölgələrimizdə "Səbahi" adı ilə tanınır [19].

Ələkbər Əsgərovun melodiyalarının əsas fərqləndirici cəhətlərindən biri də odur ki, o, öz yanaşması ilə muğam məqamları və Avropa ladları arasında sərbəst modulyasilar əsasında sintez yarada bilir. Təhlilə əsasən demək olar ki, "Zöhrabı" d-moll tonallığında qurulmuşdur.

Sənətkarın bəstələdiyi rəqs melodiyaları struktur özəlliklərinə görə fərqlidir və hər biri proqramlılıq təşkil edir. Dissertasiyada Ələkbər Əsgərovun rəqs melodiyaları not nümunələri ilə müqayisəli şəkildə təhlil edilir.

**"Ədaləti"** rəqs melodiyası Ələkbər Əsgərov tərəfindən 1961-ci ildə yazılıb. Sənətkar bu rəqsi ilk oğul övladı Ədalətin dünyaya gəlməsi şərəfinə bəstələyib. "Ədaləti" rəqs melodiyasının oynaq quruluşu sənətkarın sevincə bürünmüş hiss və duyğularından xəbər verir. "Ədaləti" rəqsinin ölçüsü 6/8, yəni el dili ilə desək, "Üç badam bir qoz" ritmində qurulub və Moderato tempində yazılıb. Bilindiyi kimi, Azərbaycan rəqs melodiyalarının böyük bir qismi bu ritmdə yazılır.

**"Mehribanı"** rəqsi Ələkbər Əsgərov tərəfindən 1967-ci ildə qızı Mehribanın doğum gününə həsr olunmuşdur. Əsər 6/8 ölçüsündə, Allegretto tempində yazılıb. Melodiya baxımından bu rəqs "sol" mayəli şur məqamında qurulub. Əsərin müəyyən hissələrində, daha dəqiq desək, 43-44-cü xanələrində "Segah" muğamının intonasiyaları hiss olunur.

**"Natəvanı"** rəqs melodiyasını Ələkbər Əsgərov 1977-ci ildə qızı Natəvanın doğum günü ilə əlaqələndirmişdir. "Natəvanı" rəqs melodiyasını araşdırdığımız zamanı öncə onaltılıq fiqurasiyalı keçidlər və mordent işarələri nəzərə çarpır. Sənətkarın qızı ailənin yeganə qıvrım saçlı üzvüdür və bu fərqlilik də melodik cümlələrin quruluşunda öz əksini tapmışdır. Bu rəqs melosiyası 6/8 ölçüsündə və Alleqretto tempində yazılmışdır. Melodiya əvvəldən axıra kimi "re" mayəli bayatı-şiraz məqamı üzərində qurulub və əsərdə heç bir modulyasiya, eləcə də başqa tonallıqlara yönəlmələr hiss olunmur. Rəqsin orta hissəsində kiçik həcmli bir neçə sekvensiyalara rast gəlirik.

**“Cavidi”** rəqs melodiyası Moderato tempində, 6/8 ölçüsündə qurulub və Ələkbər Əsgərovun digər rəqslərində olduğu kimi, nəfəs çalğı alətlərinin ifaçılıq xüsusiyyətlərinə xas olan səkkizlik pauza ilə başlanır. Melodiya “fa” mayəli rast məqamı üzərində qurulub, sonra isə 17-24-cü xanələrdə “re” mayəli şur məqamına modulyasiya olunaraq keçid alır. Belə bir hal Azərbaycan xalq musiqi nümunələrində özünü göstərir ki, bu da kiçik həcmli “Zəmin-Xara” muğamına əsaslanır. Belə ki, “Zəmin-Xara” muğamının melodik quruluşunun başlanğıcı rast məqamına əsaslansa da, inkişaf nəticəsində aşağıya doğru kiçik tersiya (k.3) intervalında olan şur məqamında tamamlanır.

**“Vüqarı”** rəqs melodiyası 6/8 ölçüdə qurulmuş və əsər səkkizlik pauza ilə başlayır. Melodiya əvvəldən axıra kimi Andante tempində və “re” mayəli bayatı-şiraz məqamı üzərində bəstələnmişdir. Ələkbər Əsgərov burada mümkün olan alterasiya işarələrindən istifadə etmişdir. Bu melodiyada klarnet alətinə xas olan forşlaq və melodik xəttin quruluşundakı nöqtəli notlar rəqsdə fərqli xarakter yaradır.

**“Rasimi”** rəqsinin melodiyasını Ələkbər Əsgərov bacanağı, tanınmış alim Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosenti, fəlsəfə doktoru Rasim Bayramova həsr edib. Bacanaqların maraqlı diskussiyaları və şən əhvali-ruhiyyəli söhbətləri həmin rəqsin melodiyasında öz əksini tapır. Əsər 6/8 ölçüsündə, Allegro con brio tempində və Ələkbər Əsgərovun bəstələdiyi rəqs nümunələrinə xarakterik olan pauza ilə başlayır. Melodiya “re” mayəli bayatı-şiraz məqamı üzərində qurulub.

**“Qədim rəqs”**in melodiyası el şənliklərinin birində ekspromt olaraq yaranıb. Melodiya 6/8 ölçüdə, Moderato tempində və “sol” mayəli segah məqamı (“Haşım segahı”) üzərində qurulduğundan özündə “Segah” muğamının intonasiyalarını əks etdirir.

**“Bəxtiyarı”** rəqsinin ölçüsü 6/8, tempi Allrgretto və melodiyası “sol” mayəli bayatı-şiraz məqamında qurulub. Burada heç bir modulyasiya və başqa tonallıqlara yönəlmələr hiss olunmur.

**“Kürdü”** rəqsinin başlanğıcı “fa” mayəli rast məqamına əsaslanır, sonra orta hissədə “re” mayəli şur məqamına yönəldilir. Melodiya Allegretto tempində və 6/8 ölçüsündə yazılıb. Daha sonra

“re” mayəli şur məqamından “mi” mayəli segah məqamına yönəlmənin şahidi oluruq. Bu üç məqam arasındakı əlaqəni musiqişünas-alim Məmmədsaleh İsmayılov öz elmi əsərində araşdırmışdır. Məmmədsaleh İsmayılov “fa” mayəli rast, “re” mayəli şur və “mi” mayəli segah məqamları arasında olan qohumluq münasibətləri haqqında ətraflı məlumat vermişdir.

**“Mətanəti”** rəqsini Ələkbər Əsgərov böyük qardaşı Əlinin qızı Mətanətin şəninə yazmışdı. Rəqsin melodiyası 6/8 ölçüdə, Allegretto tempində və “lya” mayəli bayatı-şiraz məqamında qurulub. Burada digər məqamlara modulyasiya və yönəlmələr yoxdur, lakin rəqsin intonasiyaları klarnet alətinin ifaçılıq imkanlarına uyğundur.

**“Maralı”** rəqsi 6/8 ölçüdə, Moderato tempində və “re” mayəli şüştər məqamında qurulmuşdur. Ələkbər Əsgərov ifaçılıq yaradıcılığında innovativ üslublara xüsusi yer verib və buna onun bəstələdiyi digər rəqslərdə də rast gəlirik. O, “Maralı” rəqsində sekvensiya keçidlərindən də istifadə etmişdir.

**“Dəyirmandan vağzaladək”** rəqsini Ələkbər Əsgərov ilk dəfə el şənliklərinin birində bədahətən ifa etmişdir. Bu rəqsin yaranmasının maraqlı bir tarixçəsi var. Toyu olan bəyin atası Ələkbər müəllimdən xahiş edir ki, mərasimdə yeni bir şıdırğı melodiya ifa etsin. Bu melodiya sədaları altında bəyin yaşadığı Bakının Dəyirman adlanan məhəlləsindən gəlinin Dəmir yolu vağzalı yaxınlığında olan evlərinə getməlidirlər. Ələkbər müəllim nağaraçalandan qaytağı ritmini çalmağı xahiş edir və özü də ifasını şüştər məqamı üzərində ritmik bir melodiya qurur. Ələkbər Əsgərovun bəsələdiyi “Dəyirmandan vağzaladək” rəqs melodiyası bu gün sevilərək başqa musiqiçilər tərəfindən də toy şənliklərində ifa edilir.

**3.3. Ələkbər Əsgərovun muğam ifaçılığında çalğı üslubu və bəstələdiyi rənglər** adlanır. Bir çox yazılı və etibarlı mənbələrə əsaslanaraq inamla söyləmək olar ki, Ələkbər Əsgərov Azərbaycan xalq yaradıcılığı və muğam sənətinin dərin bilicilərindən biri olmuşdur. Onun klarnet, balaban, zurna, ney və tütək kimi nəfəs çalğı alətlərində ifa etdiyi hər bir instrumental muğam fəlsəfi mahiyyət daşıyaraq dinləyicini tarixin dərin qatlarına aparır. Bu ifalarda sevinc də, kədər də vardır. Heç də təsadüfi deyil ki, dəhşətli 20 Yanvar hadisələri zamanı xalqımızın ən hüznlü günlərində

Azərbaycan televiziya və radiosunda milli ruhu əks etdirən çoxsaylı verilişlər hazırlanırdı. Bu zaman Ələkbər Əsgərovun ifasında da "Hümayun", "Zəmin-Xara", "Segah" və "Şüştər" kimi muğamlar səsləndirilmişdir. Bu ifalar sanki Vətən uğrunda canlarından keçən hər bir şəhidimiz üçün bir haray çəkirdi.

Ələkbər Əsgərovun klarnetdə – "Bayatı-Şiraz", "Bayatı-kürd", "Rast", "Şur", "Mahur", "Hümayun", "Çoban bayatı", Zəmin-Xara", "Mirzə Hüseyn segahı", "Çoban-Bayatı", "Çahargah", "Segah"; balabanda – "Rast", "Şur", "Dügah"; tütəkdə – "Şüştər", neydə – "Dügah" kimi muğam ifalarını YouTube platformasında dinləmək mümkündür.

Dissertasiyada məqsəd muğamları ayrıca araşdırmaq deyil, amma "Dügah" muğamı tədqiqat işində bir qədər geniş nəzərdən keçirilir. Əsas səbəb odur ki, bu muğam tədris proqramlarına daxil edilmədiyindən tədricən unudulurdu. Ələkbər Əsgərov "Dügah" instrumental-folklor ansamblını yaratmaqla və tez-tez teleməkanlarda bu kollektivlə çıxışlar etməklə *"həyəcan təbili"* çalmış oldu.

Bilindiyi kimi, "Dügah" muğamı 9 may 1925-ci ildə Üzeyir bəy Hacıbəyli tərəfindən tərtib edilmiş ilk tədris proqramına daxil edilmişdir. Lakin sonralar bizə məlum olmayan səbəblərdən "Dügah" muğamı tədris proqramlarından çıxarılmışdır.

Ələkbər müəllimin yaratdığı instrumental-folklor ansamblı 1981-ci ildən mütəmadi olaraq efirlərdə, müxtəlif konsert salonlarında bəstələdiyi "Dügah" muğamını repertuara daxil etməklə yaratdığı ansamblın ifasında dinləyicilərə təqdim etmişdir. Bununla da o, unudulmaqda olan "Dügah" muğamını gündəmə gətirdi. Beləliklə, "Dügah" muğamı tədris proqramlarına daxil olundu.

Tədqiqat işinin bu paraqrafında Ələkbər Əsgərovun bəstələdiyi "Dügah", "Bayatı-Şiraz" və "Şur" rənglərinin not nümunələri təqdim edilmişdir. Burada, Ələkbər Əsgərovun şüştər məqamlı diringisinin mahnıya çevrilməsindən də bəhs edilir. İşin içində musiqisi Ələkbər Əsgərova, sözləri Tahir Rəvana aid edilən "Naz etmə" mahnısı not nümunəsi əsasında tədqiq olunur.

Dissertasiyanın **Nəticə** bölümündə tədqiqata yekun vurulur. "**Azərbaycan nəfəs çalğı alətləri ifaçılığı inkişafında Ələkbər**

**Əsgərovun rolu”** adlı dissertasiya işini tamamlayaraq, əldə olunmuş yekun nəticələri diqqətə çatdırılır.

Belə ki, dissertasiyanın “Giriş” bölməsində mövzunun aktuallığı və işlənmə dərəcəsi göstərilir, elmi yeniliyi əsaslandırılır, tədqiq olunan problemin obyekti və predmeti, məqsəd və vəzifələri açıqlanır, araşdırmanın metodları, nəzəri və praktiki əhəmiyyəti şərh edilir, müdafiəyə çıxarılan əsas müddəalar ayrıca olaraq sistemləşdirilmiş şəkildə təqdim olunur. İşin aprobasiyası və tədbiqi, onun quruluşu və srtuktur bölmələrinin ümumi həcmi (ayrılıqda işarələrlə göstərməklə) haqqında dəqiq və aydın şəkildə məlumat verilir.

– I fəsildə Ələkbər Əsgərovun həyatı və yaradıcılıq fəaliyyətinin istiqamətləri nəzərdən keçirilir. Burada, Azərbaycan musiqi mədəniyyətini əsrarəngiz çalğıları ilə zəngin edən ifaçının yaradıcılıq yolu, uzunmüddətli pedaqoji fəaliyyəti və balaban məktəbi, həmçinin, Ələkbər müəllimin tədris üçün hazırladığı repertuarın yaranma tarixi diqqətə çatdırılır. Bundan başqa, rəhbəri və yaradıcısı olan “Dügah” instrumental-folklor ansamblının spesifik xüsusiyyətləri və digər ansambllardan fərqlili cəhətləri nəzərdən keçirilir.

– II fəsildə balaban, zurna və klarnet nəfəs çalğı alətlərinin yaranma tarixi, inkişaf mərhələləri və təkmilləşdirilməsi nəzərdən keçirilir, eləcə də, müxtəlif növləri bir sıra poetik nümunələrlə təqdim olunur. Ələkbər Əsgərovun hazırladığı iki klapanlı balaban, “As” köklü klarnet və qoşazurna alətlərinin konstruksiyalarının quruluş özəllikləri diqqətə çatdırılır.

– III fəsildə xalq rəqslərindən və Ələkbər Əsgərovun milli rəqs ifaçılığında özünəməxsus improvizələrindən söhbət açılır. Onun balabanda, zurna və klarnetdə ifa etdiyi xalq melodiyaları nəzərdən keçirilir, başqa ifaçılardan fərqləndirən ifa üslubu və çaldığı alətlərin tembr fərqliliyi diqqətə çatdırılır. Ələkbər Əsgərovun – “Uzundərə” (balaban), “Vağzalı” (klarnet), “Qazağı” (klarnet), “Tərəkəmə” (klarnet) kimi xalq melodiyaları üzərində qurduğu improvizəli çalğıları Azərbaycan mədəni irsinin incilərindəndir. Bu fəsildə Ələkbər Əsgərovun bəstələdiyi rəqs melodiyaları təhlil olunur və struktur özəllikləri bildirilir. Ələkbər Əsgərovun çoxşaxəli yaradıcılığında muğam ifaçılığı, bəstələdiyi diringi və instrumental rənglər də xüsusi yer almışdır.

**Dissertasiyanın elmi nəticələri** müəllifin **aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**


1. Quliyeva, M.Ə. Balaban aləti və Ələkbər Əsgərovun işləmələri // – Bakı: Konservatoriya, – 2017. – №3 (37), – s. 25-30.
2. Quliyeva, M.Ə. Ələkbər Əsgərovun bəstələdiyi rəqs melodiyalarının struktur özəllikləri / Azərbaycan Milli Konservatoriyası I Beynəlxalq elmi-praktik konfransın materialları // Qloballaşan Dünyada Musiqi Ənənələri, – Bakı: – 26-27 oktyabr, – 2017. – s. 178-182.
3. Quliyeva, M.Ə. Ələkbər Əsgərovun bəstələdiyi rəqslərin müqayisəli təhlili / XVI Beynəlxalq konfrans materialları / "Türksoylu Xalqların Musiqi Mədəniyyətinin Tədqiqi Problemləri" // – Bakı: – 2017. – s. 172-173.
4. Quliyeva, M.Ə. Nəfəs çalğı alətlərinin görkəmli nümayiəndəsi Ələkbər Əsgərovun yaradıcılıq məziyyətləri / "Doktorantların və Gənc Tədqiqatçıların XXII Respublika elmi konfrans materialları" [İki cilddə] // – Bakı: 22-23 noyabr, – Cild 2. – 2018. – s. 493-495.
5. Quliyeva, M.Ə. Ələkbər Əsgərovun rəqs melodiyaları və muğam rəngləri / M.Ə.Quliyeva, [Notoqrafiya] // – Bakı: Ecoprint, – 2018. – 24 s.
6. Гулиева, М.А. Развитие народных духовых инструментов в Азербайджане и роль Алекпера Аскерова // – Нур-Султан: Международный научно-практический журнал Бобек, серия Культурология, – 2020. – №3 (1), – с. 7-10.
7. Guliyeva, M.E. Elekber Esgerov tarafından bestelenen dans ezgilerinde yenilikçi yaklaşım ve yapısal özellikler / "VII Uluslararası Müzik ve Dans Kongresi" // – İzmir: Sakarya Üniversitesi Yayınları, – 2021. – № 209, – s. 329-337.
8. Quliyeva, M.Ə. Ələkbər Əsgərovun balaban aləti üçün köçürmələri və işləmələri / M.Ə.Quliyeva, [Notoqrafiya] // – Bakı: Zərdabi nəşriyyat-poliqrafiya MMC, – 2021. – 181 s.
9. Quliyeva, M.Ə. Milli nəfəs çalğı alətlərinin inkişafı və Ələkbər Əsgərovun ifaçılıq məktəbi / Ü.Hacıbəyli adına BMA-nın 100 illiyi çərçivəsində Beynəlxalq elmi-praktik konfrans

materialları / "Etnoorqanologiya: Aktual problemlər və vəzifələr" // – Bakı: 29-30 aprel, – 2021. – s. 242-253.
10. Guliyeva, M.E. Batı ve Azerbaycan makam kuruluşlarından faydalanarak serbest ve özgün bir sentez: Elekber Esgerov`un dans melodilerı // – Ankara: Avrasya Çalışmaları, – 2022. – s. 52-74.
11. Guliyeva, M.A. History of the origin of folk wind instruments in Azerbaijan and the role of Alakbar Asgarov in the development of the performing school // – Almaty: Kazakh National Conservatory Art and Science Journal, – 2022. №4 (37), – pl. 6-10.
12. Quliyeva, M.Ə. Ələkbər Əsgərovun yaradıcı fəaliyyətinin müxtəlif istiqamətlərinə dair // – Bakı: Konservatoriya, – 2023. – №3 (60), – s. 21-28.
13. Quliyeva, M.Ə. Klarnetin tarixi inkişafı və Ələkbər Əsgərovun alət üzərində etdiyi yeniliklər // – Bakı: Elmi iş, – 2023. – Cild 17 № 3, – s. 33-40.
14. Quliyeva, M.Ə. Ələkbər Əsgərovun yaradıcılığındakı islahatlar və novatorluq // – Bakı: İncəsənət və Mədəniyyət Problemləri, – 2023. – Cild 17 № 4, – s. 101-109.
15. Quliyeva, M.Ə. Ələkbər Əsgərovun şəxsi arxivinin təsviri // – Bakı: Musiqi Dünyası, – 2023. – №3-4 (96/97), – s. 9208-9224.
16. Guliyeva, M.E. Elekber Esgerov`un Azerbaycan üflemeli çalgıları alanının gelişimindeki rolünün incelenmesi // – İsparta: Türk Müziği, – 2023. – Cilt 3 sayı 4, – s. 403-419.
17. Guliyeva, M.A. Mugham Art and Alakbar Asgarov`s "Dugah" Folklore Ensemble / 6 th İnternational Culture, ART and Literature Congress / "Proceedings Book" // – Baku: 20 November, – 2023, – pl. 88-97.
18. Гулиева, М.А. Музыкальное наследие представителя азербайджанской культуры Алекпера Аскерова // – Казань: Музыка. Искусство, наука, практика, – 2024. №1 (45), – с. 97-109.
19. Гулиева, М.А. Эволюция духовых инструментов Азербайджана в контексте исполнительского стиля Алекпера Аскерова / Сборник материалов круглого стола,

20. посвящённого 80-летию Казахской Национальной Консерватории им. Курмангазы / "Исполнительское искусство: Традиции и современность" // – Алматы: – 11 апреля, – 2024, – с. 62-69.





26

Dissertasiyanın müdafiəsi 26 05 2025-ci il tarixində saat 11⁰⁰ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25. 04. 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.04.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 41637 işarə

Tiraj: 100